**UOT-94 "19/..."**

# KİPR MÜNAQİŞƏSİNDƏ 1974-CÜ İL HADİSƏLƏRİ VƏ TÜRKİYƏNİN MÜDAXİLƏSİ

**F.M.HACIYEV**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***farid.h@meclis.gov.az***

*XX əsrin 70-ci illərində Kiprdə yaranmış daxili siyasi vəziyyət artıq təminat ölkələrini ciddi tədbirlər görməyə sövq etdi. O dövrdə Yunanıstan hökumətinin Kiprə dair siyasətində yol verdiyi səhvlər və eyni zamanda Türkiyə hökumətinin bu səhvlərdən istifadə edərək atdığı qətiyyətli addımlar Kiprin bugünkü mənzərəsini yaratmış oldu. Dövrün şərtlərinə görə Türkiyənin 1974-cü ildə Kiprə hərbi müdaxiləsi qaçılmaz idi və Türkiyə bu tarixi şansdan layiqincə istifadə etməyi bacarmışdı.*

**Açar sözlər:** Türkiyə, Kipr, münaqişə, enosis, müdaxilə

1967-ci il böhranından sonra Makariosun enosisin praktiki cəhətdən mümkünsüz olduğunu qəbul etməsi daxildə Qrivasın və enosisin tərəfdarlarını ona qarşı qaldırdı. Bu, həmçinin Makariosun Yunan xuntası ilə münasibətlərinin pisləşməsinə, daha sonra isə tamamilə pozulmasına gətirib çıxartdı.

Afinada Arxiyepiskopla xunta arasında münasibətlərin pisləşməsi, Kiprdə isə Makariosa qarşı terrorçu müxalifətin baş qaldırması hadisələrin gedişini müəyyən edirdi. Artıq Afinada bəzi mühüm fiqurlar Kipr münaqişəsinin həlli üçün Makariosun getməsinin vacibliyini bəyan edirdilər. Onlar istədikləri həll variantı Türkiyəni ələ almaq yolu ilə enosisə nail olmaq idi. Lakin bu, Kipr məsələsində Türkiyəyə Axeson planında öz əksini tapmış güzəştlərin edilməsini nəzərdə tutacaqdı ki, bu güzəştlərlə Makarios heç vaxt razılaşmazdı. Hər bir halda Makarios xuntanı yox, sürgün edilmiş kralı dəstəkləyirdi. Makariosu kənarlaşdırmaq üçün xunta Arxiyepiskopu Ellinizmə xəyanət etməkdə günahlandıran və özünü Milli Cəbhə adlandıran bir qrupa dəstək verirdi. Makariosa qarşı sabotaj və terrorçuluq kompaniyası başladılmışdı və 1970-ci ilin mart ayında Makariosun vertolyotu vuruldu, lakin o, güclə canını qurtara bildi. Makarios bu işdə Kiprin sabiq daxili işlər naziri Polikarpos Yorqadyisin əli olduğunu bildirdikdən bir həftə sonra Yorqadyis sirli şəraitdə qətlə yetirildi. General Qrivas isə 1971-ci ilin payızında gizli yolla Kiprə

qayıtdı. O, burada Makarios enosisə xəyanət edəcəyi müddətdə ona qarşı istifadə edə biləcəyi "EOKA B" adlanan hərəkat yaratdı.

1972-ci ilin fevralında Yunanıstan hökuməti Makariosa nota göndərərək uzun müddətdən bəri Kiprin xarici işlər naziri vəzifəsində çalışan Spiros Kiprianunu və xuntanın əleyhinə olan digərlərini vəzifədən kənarlaşdırmağa və "Millətçi Kipr Ellinizminin" bütün seqmentlərindən (yəni AKEL və enosisə can yandırmayanları çıxmaq şərtilə) təşkil olunmuş "milli birlik hökuməti" formalaşdırmağa çağırdı. Makariosa həmçinin Milli Mərkəzin həmişə Afina olduğunu unutmamağı da tövsiyə etdilər. 2 həftə sonra Kipr Kilsəsinin yepiskopları toplanaraq dini hakimiyyətlə dövlət hakimiyyətinin bir araya sığmaması iddiası ilə Makariosa prezidentlikdən istefa verməyi əmr etdilər. Makarios Kiprianunu əvəz etdi, lakin eyni zamanda öz populyarlığını sübut etmək üçün kütləvi mitinqlər təşkil etdi, xuntanın tələb etdiyi hökuməti formalaşdırmaqdan imtina etdi və Kralı dəstəkləyən yeni qəzeti maliyyələşdirməyə başladı.

Aprelin 13-də 3 yepiskop Arxiyepiskopu hakimiyyətdən salınmış elan etdilər və onun rütbəsini keşiş rütbəsinə qədər azaltdılar. Tezliklə Arxiyepiskop Şərqi Pravoslav Kilsələri Sinodunu bir araya gətirməklə daha böyük dini silahlara əl atmış oldu, belə ki, Sinod öz qərarı ilə Makariosun əvvəlki mövqeyini bərpa etdi, eləcə də qiyamçı yepiskopları kilsə daxilində parçalanma və səmavi qanunlara itaətsizlikdə ittiham edərək onları kilsədən uzaqlaşdırdı. Siyasi cəhətdən də Arxiyepiskop seçkilərdə özünə rəqib tanımırdı. Lakin Makarios nədənsə hələ də Qrivasa və "EOKA B"yə qarşı sərt tədbirlər görməkdən çəkinirdi. Bu isə ya Makariosun azadlıq mübarizəsi dövründə Britaniyanın istifadə etdiyi metodlardan istifadə etməmək arzusundan, ya da Qrivasın həm özü kimi kralçı, həm də Kiprin bölünməsinin əleyhdarı kimi hələ faydalı ola biləcəyi fikrindən irəli gəlirdi. Bununla belə, 1974-cü ilin yanvarında Qrivas ürək çatışmazlığından vəfat etdi və "EOKA B" dərhal xuntanın agentlərinin nəzarətinə keçdi. Kipr polisinin çox hissəsi keçmiş EOKA üzvlərindən təşkil edilmiş, 10000 nəfərdən ibarət Milli Qvardiya isə Yunanıstan Ordusu tərəfindən idarə edilir və ondan daha çox "EOKA B"nin əsgər ehtiyacını ödəmək məqsədilə istifadə edilirdi (5, 4-7).

1973-cü ilin payızında Afinada baş vermiş növbəti hərbi çevriliş nəticəsində bir xunta faktiki olaraq Hərbi Polisin Rəisi Briqadir İoannidesin başçılıq etdiyi digər bir xunta ilə əvəz edildi, baxmayaraq ki, dövlətin həqiqi başçısı General Faedon Gizikis hesab edilirdi. 1974-cü il iyulun 2-də Prezident Gizikisə yazdığı məktubda "Mənim hərbi rejimlərə, xüsusilə də demokratiyanın beşiyi sayılan Yunanıstandakı hərbi rejimə xüsusi rəğbətimin olduğunu deyə bilmərəm", - deyən Makarios, bununla belə, Yunanıstanda kimin hakimiyyətdə olmasından asılı olmayaraq, onu ana vətənin hökuməti kimi dəyərləndirirdi. Bundan sonra Arxiyepiskop Milli Qvardiyanın tərkibində olan 650 yunan zabitinin geri çağırılmasını istəmiş və məğrurluqla bildirmişdi: "Mən Yunanıstan hökumətinin Kiprə təyin etdiyi prefekt və ya nümayəndə deyiləm,

mən Ellinizmin böyük bir hissəsinin seçilmiş lideriyəm və məhz elə buna görə də Milli Mərkəzdən özümə qarşı müvafiq rəftar tələb edirəm" (5, 7-14).

Yunanıstan hökumətinin cavabı isə Arxiyepiskop Makariosa qarşı uzun müddətdən bəri hazırlanan sui-qəsd planına start vermək oldu. 1974-cü il iyulun 15-də yunan zabitlərinin rəhbərlik etdiyi Milli Qvardiya Kiprdə hakimiyyəti devirdi, prezident sarayının bir hissəsini dağıtdı və Makariosun öldüyünü elan etdi. Lakin həmin vaxt Makarios Pafosa qaça bilmiş, oradan isə vertolyotla Akrotiridəki suveren bazaya aparılmışdı. Xunta Makariosun yerinə keçmiş EOKA terrorçusu Nikos Sampsonu gətirdi. Kiprə daxil olmaq üçün Türkiyənin əlinə belə əlverişli imkan bir daha düşməyəcəkdi. Belə ki, bir yandan Zəmanət Müqaviləsinin hüquqi əsasları buna imkan verirdi, digər yandan isə sonradan Makariosun da BMT-də çıxışı zamanı təsdiq edəcəyi Yunanıstanın aşkar müdaxiləsi göz qabağında idi. Həmin dövrdə qərb liderləri arasında müəyyən nüfuza malik olan Bülənt Ecevitin Londona səfər etməklə zamin dövlətlərdən biri kimi Britaniyanı əməkdaşlığa dəvət etməsi çox düzgün addım idi. Britaniya hökuməti çətin seçim qarşısında qalmışdı. Əgər o, Zəmanət Müqaviləsinin IV maddəsinə uyğun hərəkət etməsə, onda bu, türklərin qarşısında yaşıl işıq yandırmaq kimi qiymətləndirilərdi. Lakin Britaniyanın Suveren Bazalarında cəmi 3000-ə qədər qoşunu var idi və bu kiçik qüvvə ilə Sampsonu devirib Makariosu yerinə qaytarmaq şübhəli görünürdü. Siyasi iradə baxımından da çatışmazlıqlar var idi. Bir tərəfdən Britaniya məsələyə tək müdaxilə etməklə Kipr siyasətində və partizan müharibəsində üzləşə biləcəyi böyük çətinliklərdən qorxur, digər tərəfdən isə Britaniyanın türklərlə birlikdə müdaxiləsi halında onun motivlərinin yunanlar və Kipr yunanları tərəfindən səhv başa düşülməsi şansları böyük idi. Çətinlik onda idi ki, bu müqavilə yalnız 1960-cı il konstitusiyasını bərpa etmək məqsədilə müdaxiləni nəzərdə tuturdu və hətta 1964-cü ildə Britaniya buna getməmişdi.

Türkiyənin Baş naziri Bülənt Ecevit iyulun 16-da yaranmış vəziyyətlə bağlı çıxış edərək bildirmişdir: "Qoy heç kim Kiprdə yaranmış xaos vəziyyətindən istifadə edərək orada yaşayan türklərin hüquqlarına qəsd eləməsin. Biz bu baş verənlərə göz yummayacağıq. Biz heç kəsə türklərin hüquqlarını tapdalamağa icazə verməyəcəyik" (4, 49). İyulun 18-də Ecevit Afinaya ultimatum göndərərək Sampsonun istefaya göndərilməsini, Kipr Milli Qvardiyasının yunan zabitlərinin Kiprdən çıxarılmasını və Kiprin müstəqilliyinə təminat verilməsini tələb etdi. Xunta ağılsızcasına yenə də inanırdı ki, ABŞ əvvəllər olduğu kimi türklərin güc tətbiqinin qarşısını bu dəfə də alacaq.

Ultimatuma cavabın verilmədiyini görən Ecevitin "sülh əməliyyatı" adlandırdığı əməliyyat başladı. Əməliyyatın başladılmasını Ecevit bu cür əsaslandırdı: "Faktiki olaraq baş vermiş bu hadisə çevrilişdən daha artıq idi. Bu, Kipr Respublikasının müstəqilliyinin və onun əsaslandığı beynəlxalq razılaşmaların kobud və zorakılıq yolu ilə pozulması idi. Türkiyə Kiprin müstəqilliyinin və konstitusion qayda-qanunun zaminlərindən biridir. Bu əməliyyatı həyata keçirməklə Türkiyə öz hüquqi öhdəliyini yerinə yetirmiş olur. Türkiyə

digər mümkün vasitələr tükənməyənə qədər silahlı əməliyyata əl atmırdı. Bu, işğal deyil, işğala qarşı yönəlmiş əməliyyatdır. Bu, təcavüz deyil, təcavüzə son qoymaq üçün atılan addımdır. Bu səhər başladılmış sülh əməliyyatı Kipr tarixinin ən qaranlıq dövrünə son qoyacaqdır" (4, 46). Hava hücumunun köməyi ilə türklər iyul ayının 20-də sübh tezdən hücum edərək Kireniya yaxınlığında yerləşdilər və sərt müqavimətlə üzləşdilər. Lakin türklər ard-arda Kipr yunanlarının yaşadığı bir neçə kəndi tutdular. İyulun 22-də BMT Təhlükəsizlik Şurası atəşkəsin əldə edilməsinə nail oldu.

Bu arada xunta hökuməti dağıldı və hakimiyyəti Konstantin Karamanlisin hakimiyyəti ilə mülkilərə təhvil verdi. Nikosiyada isə Sampson Prezidentliyi Makariosun Konstitusional müavini Qlafkos Kleridesə təslim etmişdi.

Britaniyanın xarici işlər naziri Ceyms Qallaqanın çağırdığı Cenevrə Konfransı baş tutana kimi, türklərin 1-ci hücumu zamanı onlarla birlikdə olan beynəlxalq ictimaiyyət artıq demokratiyanın bərpa olunduğu Yunanıstana doğru meyllənmişdi. Konfransda artıq rollar dəyişmişdi: Türkiyənin Zəmanət Müqaviləsinin şərtləri altında hərəkət etməsini qəbul edən Klerides 1960-cı il konstitusiyasının tam bərpasını istədi. Lakin türklər və Kipr türkləri artıq başqa dildə danışırdılar. Rauf Denktaş və Türkiyənin Xarici İşlər naziri Turan Günəş bəyan etdilər ki, yeni böhran 1967-ci ildən sonra guya öldüyü bildirilən enosis ideyasının hələ də yaşadığını sübut etdi. Onların dediyinə görə, Kipr türklərində onların adada istənmədikləri barədə fikir oyadılmışdı və buna görə də artıq Kiprdə 2 muxtar zonadan ibarət Federasiyanın yaradılması qaçılmaz hala gəlmişdi (7, 3-5). Yaradılacaq federasiyada türklərin zonası isə adanın 34% şimal ərazilərini tutacaqdı. Yalnız bundan sonra türklərin adekvat təhlükəsizlik hissi və enosisə qarşı etibarlı zəmanəti olacaqdı, belə ki, yenidən Yunanıstanla birləşmək meylləri baş qaldırardısa, onda türklərin tam şəkildə federasiyadan ayrılmasına artıq heç nə mane ola bilməzdi. Dəhşətli təzyiq altında federasiya prinsipinə güzəştə getməklə Kipri sonrakı işğaldan xilas etmək üçün Klerides Afina ilə, Kiprin yunan icmasının liderləri ilə, eləcə də Londonda olan Arxiyepiskop Makariosla məsləhətləşmək üçün Türkiyədən 36 saatdan 48 saata qədər möhlət istədi. Türkiyənin xarici işlər naziri Makarios və digərlərinin daha çox vaxt udmaq üçün bundan istifadə edə biləcəyini əsas gətirərək Kleridesin bu xahişini rədd etdi. Həqiqət isə ondan ibarət idi ki, Ecevit hökumətinin siyasi mövqeyi riskli idi və mövcud olduğu dəhlizdə özünü narahat hiss edən Türk ordusu gözləmək istəmirdi. Konfransın başa çatmasından 1,5 saat sonra türklərin yeni hücumu başladı. Onlar tez bir zamanda Cenevrədə istədiklərindən daha çox ərazini tuta bildilər. Nəticədə Kiprin ərazisinin 36,5%-i türklərin nəzarətinə keçdi. Türkiyənin bu müdaxiləsi Kiprin bu günkü siyasi mənzərəsini yaratmış oldu. Belə ki, əvvəllər bu iki müxtəlif icmanı necə bir araya gətirməyin yolları axtarılırdısa, bu müdaxilədən sonra dünya ictimaiyyətini artıq bir-birindən qopmuş bu iki bölgə arasında əlaqənin necə yaradılması məsələsi düşündürməyə başladı.

Zəmanət Müqaviləsinin məqsədi ikiicmalı respublikanın müstəqilliyinin qorunub saxlanılması idi. Bu müqavilə və ondan doğan müdaxilə hüququ olmasa idi, Kipr Yunanıstanın tərkib hissəsinə çevriləcəkdi. Türkiyənin bu müdaxiləsinin nəticəsində Kipr adasında bu günə qədər müstəqil respublika hökm sürür, Yunanıstanda demokratiya bərqərar oldu və 1974-cü ildən bəri adanın hər iki icması zorakılıq, toqquşma və qətllər olmadan sülh şəraitində yaşayırlar. Yalnız bütün bunları nəzərə aldıqda, 1974-cü il müdaxiləsinin nə dərəcədə zəruri olduğunu söyləmək olar.

## ƏDƏBİYYAT


1. Guner Goktug. Kuzey Kıbrıs Türk Cumhuriyyetini hazırlayan siyasi nedenler. Nisan 1990, s. 161-164, Cerrahoglu Zehra. Birleşmiş Milletler Gözetiminde Kıbrıs sorunu ile ilgili olarak yapılan toplumlararsı görüşmeler (1968-1990). TC Kültür bakanlıgı yayınları. Yayınlar dairesi Başkanlığı. Kültür eserleri Dizisi. Ankara, 1998, s. 69-71
2. Manisalı Erol. Dünden Bugüne Kıbrıs. Gündoğan Yayınları / Siyaset ve Sosyoloji Dizisi 172 sayfa, ISBN: 975-520-193-9; Boyut: 14cm x 21cm; Baskı Tarihi: 2002
3. Olgun Aydın. Dünden Bugüne Kıbrıs Sorunu Kastaş. Yayınları / Tarihsel Araştırmalar Belgeseli Dizisi 100 sayfa, ISBN: 975-7639-66-X; Baskı Tarihi: 1999
4. Qazioğlu Ahmet. Two equal and sovereign peoples. Nikosiya: Cyrep, 1997
5. BolukbasiS. The Turco-Greek Dispute. in C.H. Dodd, Turkish Foreign Policy: New Prospects, Cambridgeshire: Eothen Press, 1992.
6. S. Bolukbasi. The Cyprus Dispute and the U.N.: Peaceful Non-Settlement Between 1954-1996. IJMES, August 1998.
7. P. Kitromilides. Greek Irredentism in Asia Minor and Cyprus. Middle Eastern Studies, Vol. 26, No. 1, 1990, pp. 3-17.
8. Christoff Marcia Kurop. Greece and Turkey. Foreign Affairs, Vol 77, No. 1, 1998, pp. 7-12.
9. Tozun Bahcheli. Searching for a Cyprus Settlement: Considering Options for Creating a Federation, a Confederation, or two Independent States. Publius, Vol. 30, Nos.1/2 (2000), pp. 203-216.
10. Reddaway John. Burdened with Cyprus, the British Connection. London, 1986, p. 12
11. www.cyprus-conflict.net


## СОБЫТИЯ 1974 ГОДА В КИПРСКОМ КОНФЛИКТЕ И ИНТЕРВЕНЦИЯ ТУРЦИИ


**Ф.М.ГАДЖИЕВ**


### РЕЗЮМЕ


Статья рассказывает о событиях приведших к разделению Кипра и формированию двух территориальных зон управляемыми двумя разными правительствами по сей день. Разногласия между военной хунтой Греции и правительством Кипра, возглавляемым Архиепископом Макариосым, привели к эскалации ситуации на острове. Военный режим в Греции намеревался отстранить Макариоса от власти и установить схожий режим на Кипре с целью воплощение идеи Энозиса в жизнь. После кризиса 1967 года Макариос знал, что любая попытка, связанная с осуществлением Энозиса может подтолкнуть Турцию к интервенции и, таким образом привести к необратимым и катастрофическим последствиям. Предсказание Макариоса сбылось, после того как в 1974 году Греческая хунта успешно осуществила военный переворот на Кипре. Турция

незамедлительно ввела войска на территорию Кипра с целью восстановления конституционного порядка. Действуя, таким образом, Турция руководствовалась правом интервенции данной ей Договором Гарантии 1959 года. Данная интервенция породила сегодняшний Кипр – остров с двумя администрациями десятилетиями ведущие безуспешные переговоры по разрешению Кипрского конфликта.

**Ключевые слова:** Турция, Кипр, конфликт, энозис, интервенция

## EVENTS OF 1974 IN CYPRUS CONFLICT AND TURKISH INTERVENTION

**F.M.HAJIYEV**

### SUMMARY

The article is related to the events leading to the partition of Cyprus and the formation of two independent territorial entities governed by two separate administrations up to this day. Frictions between the military regime ruling in Greece and the "leadership" of Cyprus represented by Archbishop Makarios resulted in the aggravation of situation in the island. The aim of the Greek military authority was to oust Makarios and to establish a military regime in Cyprus, thus paving way to Enosis. After the crisis of 1967 Makarios understood that the revival of the sentiments on Enosis could lead to catastrophic consequences with the intervention of Turkey. Greece's successful military coup in Cyprus overthrowing Makarios in 1974 justified the prediction of Archbishop. Turkey intervened immediately, enjoying its right of intervention vested with it by the Treaty of Guarantee, with a sole aim to restore constitutional order in Cyprus. This intervention produced today's Cyprus – the island with two separate administrations involved in the decades of unsuccessful negotiations.

**Key words:** Turkey, Cyprus, conflict, enosis, intervention